**AZƏRBAYCANIN GÖRKƏMLİ ŞƏXSİYYƏTLƏRİ**




# MÜSLÜM MAQOMAYEV

## BİBLİOQRAFİYA

Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

Azərbaycan
Milli Kitabxanası

*Azərbaycanın görkəmli şəxsiyyətləri*

# MÜSLÜM MAQOMAYEV

## *BİBLİOQRAFİYA*

**BAKI - 2011**

Tərtib edəni: **L.Şirinova**

Buraxılışa məsul və ixtisas redaktoru: **K.Tahirov,** *Əməkdar mədəniyyət işçisi, fəlsəfə doktoru*

Redaktor: **M.Vəliyeva**

**Müslüm Maqomayev:** Biblioqrafiya /tərt. ed. L.Şirinova; burax. məs. və ixtis. red. K.Tahirov; red. M.Vəliyeva; M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası. - Bakı, 2011. - 168 s.

**© M.F.Axundov adına Milli Kitabxana, 2011**

# TƏRTİBÇİDƏN

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası Azərbaycanın görkəmli bəstəkarı, ilk professional opera dirijoru, Respublikanın Əməkdar incəsənət xadimi Əbdül Müslüm Məhəmməd oğlu Maqomayevin həyat və yaradıcılığını əks etdirən biblioqrafiya tərtib etmişdir.

M.Maqomayev haqqında ilk biblioqrafik göstərici Azərbaycan MEA-nın Mərkəzi Elmi Kitabxanası, Memarlıq və İncəsənət İnstitutu tərəfindən 2000-ci ildə tərtib edilmişdir. M.F.Axundov adına Milli Kitabxana tərəfindən hazırlanmış "Müslüm Maqomayev" adlı bu elmi-köməkçi göstəricidə materiallar yenidən toplanmış, əvvəlki vəsaitdə nəzərdən qaçan ədəbiyyat əlavə edilərək çap edilmişdir. Vəsait bəstəkarın həyat və yaradıcılığının 1909-cu ildən 2011-ci ilədək olan dövrünü əhatə edir.

Biblioqrafiyada "Müslüm Maqomayevin həyat və yaradıcılığının əsas tarixləri", "Görkəmli şəxsiyyətlər Müslüm Maqomayev haqqında", "Əsərləri", "Azərbaycan EA-nın Əlyazmalar İnstitutunda saxlanılan əlyazmaları", "Səsyazmalar", "Proqramlar", "Elektron resurslar", "Dövri mətbuatda və məcmuələrdə çap olunan məqalələri" və "Həyat və yaradıcılığı haqqında" adlı bölmələr verilmişdir.

"Müslüm Maqomayevin əsərlərinin əlifba göstəricisi", "Dövri mətbuatda və məcmuələrdə çap olunan məqalələrinin əlifba göstəricisi" və "Müslüm Maqomayev haqqında yazmış müəlliflərin əlifba göstəricisi" adlı köməkçi aparat biblioqrafiyadan istifadəni asanlaşdırmaq məqsədilə tərtib edilmişdir.

Göstərici M.Maqomoyevin yaradıcılığını tədqiq edən və öyrənən elmi işçilər, konservatoriya və musiqi məktəbləri tələbələri, habelə geniş oxucu kütləsi üşün nəzərdə tutulmuşdur.

Nəşrlə bağlı arzu və rəylərini bildirəcək hər bir mütəxəssisə və oxucuya əvvəlcədən minnətdarlığımızı bildiririk.

Ünvan: AZ-1000, Bakı şəhəri, Xaqani küçəsi, 29.

**E-mail: contact@anl.az**

**URL: www.anl.az**

# ƏBƏDİYAŞAR BƏSTƏKARIMIZ

Görkəmli Azərbaycan bəstəkarı, maarifçi, ictimai xadim Əbdül Müslüm Maqomayev milli musiqimizin inkişafında, təbliğində böyük rol oynamışdır. O, Qroznı şəhərində, 1885-ci il sentyabr ayının 18-də Maqomet Maqomayevin ailəsində anadan olmuşdur. Fikir verin, eyni ildə hətta eyni gündə iki böyük bəstəkar dünyaya gəlmişdir: Üzeyir Hacıbəyli və Müslüm Maqomayev. Onlar ömrü boyu bir amala xidmət ediblər. M.Maqomayev Ü.Hacıbəylinin ən yaxın dostu, silahdaşı, məsləkdaşı olmuşdur.

Maqomet Maqomayevin üç oğlu və üç qızı var idi. Müslüm Qroznı şəhər məktəbini bitirib 1899-cu ildə Qori Zaqafqaziya müəllimlər seminariyasına daxil olur. Seminariyanın təhsil proqramına ümumi fənlərdən əlavə musiqi və mahnı dərsləri də daxil idi. Müslüm balaca olarkən qarmonda çalmağı öyrənir, Azərbaycan xalq mahnılarını zövqlə ifa edirdi. Maraqlıdır ki, hələ Qroznı şəhər məktəbində oxuyan zaman Müslüm orada təşkil olunan konsertlərdə iştirak edirdi. Skripkanı sərbəst və zövqlə çalan Müslüm hamının diqqətini cəlb edir, tez-tez konsertlərdə iştirak etməyə dəvət olunur. Hətta sonralar klarnet ifa etməyi də öyrənir.

Nəticədə, M.Maqomayev seminariyada təhsil aldığı illər ərzində musiqinin nəzəriyyəsini, tarixini, ifaçılıq sənətini də ciddi mənimsəyir.

Seminariyada oxuduğu illərdə Müslüm Üzeyirlə dostluq edir və onların bir-birinə olan hörməti hamı üçün nümunə olur.

Sonralar M.Maqomayev Lənkəranda uzun müddət işləyir. O, yalnız öz pedaqoji fəaliyyətilə kifayətlənmir. M.Maqomayev xalq arasında böyük həvəslə, məhəbbətlə mədəni-maarif işləri aparır.

M.Maqomayevin inqilabdan əvvəl yazdığı əsərlər sırasında "Şah İsmayıl" operası mühüm yer tutur. Bəstəkarın irsini tədqiq edən musiqişünas alimlərdən Qəmər xanım İsmayılova

yazır: "Şah İsmayıl" operasının birinci redaksiyasında muğamat improvizasiyaları Ü.Hacıbəylinin ilk operalarında olduğu kimi, burada da əsas yer tuturdu. Söz yox ki, bəstəkarın bu üslubda opera yaratmasına əsaslı səbəblər var idi. O zamankı Azərbaycan tamaşaçılarının mürəkkəb opera formalarını dinləməyə hazır olmadığını və musiqili teatra yenicə cəlb olunan xalqın zövqünə yaxın olan musiqiyə müraciət etmənin zəruri olduğunu Maqomayev nəzərdə tutmaya bilməzdi.[1]

M.Maqomayevin "Şah İsmayıl" operasının üç redaksiyası mövcuddur. 1930-cu ildə M.Maqomayev operanın üçüncü redaksiyasını yaradır. Həmin redaksiyada musiqi materialı əvvəldən sona qədər notla yazılmış şəkildə təqdim olunmuşdur.

M.Maqomayev klassik operanın bütün əsas formalarından - ariyalar, ansambllar, çoxsəsli xor, Azərbaycan musiqisinin incilərindən – zərb muğamlarından ("Kəsmə şikəstə", "Qarabağ şikəstəsi") və ümumiyyətlə milli musiqimizin bütün janrlarından yüksək sənətkarlıqla istifadə etmişdir. Operanın əsas ideyası ilə əlaqədar olaraq, əsərin magistral dramaturji xətti bilavasitə Şah İsmayılın obrazı ilə sıx bağlıdır.

Şah İsmayıl obrazının təsvirində bəstəkar iki üsuldan məharətlə istifadə edir: II, III və V pərdələrdə M.Maqomayev improvizasiya üsuluna müraciət edir. I pərdədə isə Şah İsmayılın öz atasına olan ehtiramı və məhəbbəti məhz opera musiqisinə səciyyəvi olan ariya janrında bəstələnib. Həmin ariyada M.Maqomayev zövqlə şüştər ladından istifadə edir.

Əzəmətli uvertüranın ardınca gələn və insanları bilavasitə Aslan şahın gərgin həyəcanlarına cəlb edən operanın əvvəlində səslənən şahın ariyası olduqca dinamik və ifadəlidir. (Musiqidə şahın ürəyində olan ölüm, qorxu hissləri təcəssüm edilir). Operanın digər obrazları da əsərdə ifadəli musiqi materialı ilə xaraktrerizə olunmuşlar. O cümlədən, Gülzarın səmimi lirik obrazı, "Döyüşçü qadın" Ərəbzənginin cəsarətli, igid siması tam dolğunluğu ilə öz əksini tapır.

---

[1] İsmayılova, Q. Müslüm Maqomayev.- Bakı: Azərnəşr, 1965.- S.18-19.

“Şah İsmayıl” operasında M.Maqomayev kütləvi səhnələrin səslənməsinə xüsusi diqqət ayırmışdır. Burada səslənən xorların dramaturji “çəkisi” olduqca böyük əhəmiyyət kəsb edir (bu baxımdan, xüsusi olaraq “Axşam oldu”, “Aman diləyən” və digərləri qeyd olunmalıdır).

Operada səslənən simfonik musiqi epizodları dinləyicinin diqqətini cəlb edir. Gözəl tədqiqatçı Q.İsmayılova qeyd edir: “Ümumiyyətlə “Şah İsmayıl” operasının simfonik epizodları öz maştabı və professional kamillik dərəcəsi ilə yaranmaqda olan milli simfonizmin ilk nümunələrindən biri kimi nəzər-diqqəti cəlb edir”.[2]

M.Maqomayevin yaradıcılığında simfonik orkestr üçün yazılmış əsərləri böyük əhəmiyyətə malikdir. Bu əsərlər 20-ci ilin axırlarında, 30-cu illərin əvvəllərində bəstələnmişdir. Bu maraqlı əsərdə M.Maqomayevin doğma vətənə, Azərbaycan xalqına olan səmimi məhəbbəti incə bədii zövqlə tərənnüm olunur: “Azərbaycan çöllərində” rapsodiyası, “Azad olunmuş azərbaycanlı qızının rəqsi” fantaziyası, “XVII partiya qurultayına həsr olunmuş marş”, “PB8” marşı, “Təsnifi-şur” və digərləri.

Beləliklə, M.Maqomayevin simfonik orkestr üçün yazdığı əsərlər sayca az olsa da, onlar milli simfonik musiqimizin inkişafında xüsusi rol oynamış, musiqi tariximizin xəzinəsinə daxil edilmişdir.

M.Maqomayev kütləvi mahnı janrının inkişafında, təbliğində olduqca mühüm rol oynamışdır. Bəstəkarın dəyərli sözlərini xatırlayaq: “Azərbaycan bəstəkarları öz doğma milli mahnıları əsasında yeni əsərlər, həyatımızın nailiyyətlərini və nöqsanlarını əks etdirən proletar musiqilər, xalqı zəhmətə və yeni qalibiyyətlərə doğru çağıran, insanları qəlbən ruhlandıran və əyləndirən şən mahnılar yaratmalıdırlar”.[3]

---

[2] İsmayılova, Q. Müslüm Maqomayev.- Bakı: Azərnəşr, 1965.- S.41.

[3] M.Maqomayevin şəxsi arxivi. Maqomayevin Azərbaycan Respublika Radio Verilişləri Komitəsinin sədrinə yazdığı təqdimat.

Azərbaycanda ilk professional qəhrəmanlıq və vətənpərvərlik mövzusunda yazılmış mahnıların müəllifi Ü.Hacıbəylidirsə ("Qızıl əsgər" marşı), M.Maqomayev isə ilk zəhmət mahnılarının müəllifidir.[4] Bu mahnılarda o dövrün fəal və işgüzar insanları tərənnüm olunur: "Mazut ordusu", "Neft", "Bizim kənddə" və s.

Bəstəkarın digər kütləvi mahnılarında vətənimizin gözəl təbiəti, yaşıl bağları, çölləri tərənnüm olunur. Bu baxımdan xüsusi olaraq M.Maqomayevin "Yaz", "May", "Tarla" mahnılarında lirik, səmimi, işıqlı obrazlar üstünlük kəsb edir. Bu mahnıların ifadəli və yadda qalan melodiyaları Azərbaycan xalq musiqisinə olduqca yaxındır. Mahnıların harmonik dili, fakturası da olduqca aydın, ifadəlidir və musiqili obrazın xarakterini əks edir.

M.Maqomayevin yeni yaradıcılıq zirvəsi – "Nərgiz" operasıdır. Bəstəkar öz gündəliyində yazır: "İşimə ən çox ilham verən əsərdə təsvir olunan hadisələrin mənə əziz olması idi. Mən bu mövzunu qəlbən sevdim, hərtərəfli düşündüm. Dramatik cəhətdən lazımi şəklə saldım. Qədim əfsanə və nağıllardan uzaqlaşıb özüm gördüyüm, şahidi olduğum, həyatla təmas etdiyim günləri düşündükcə ruhlanır, yaradıcılıq işimi daha da böyük həvəslə aparırdım"[5].

Beləliklə, yeni müasir mövzuya bəstəkarın müraciət etməsi, kasıb kəndlilərin mülkədar cəlladlarına qarşı sinfi mübarizəsini təcəssüm etdirməsi Maqomayevin ən dəyərli xidməti idi.

1935-ci ilin dekabr ayının 24-də "Nərgiz" operasının premyerası oldu. Quruluşçu rejissor - A.Tuqanov, dirijor-M.Maqomayev idi. Əsas rolların ifaçıları: Nərgiz - A.Terequlova, Əliyar - H.Hacıbababəyov, Cəfər - Y.Rzayev, Ağalar bəy

---

[4] Bu haqda daha ətraflı bax: И.Эфендиева. Азербайджанская советская песня.- Баку: Язычы, 1981.- С.37-43.

[5] M.Maqomayevin şəxsi arxivi.

- M.Bağırov, Həsən kişi - B.Mustafayev, Bədəl - H.Hüseynov, Molla Mütəllim - Ə.Zülalov.

Ü.Hacıbəyli bu operaya yüksək qiymət vermişdir. O yazırdı: “Öz mövzusunu xalq kütlələrinin üsyan hərəkatından götürmüş “Nərgiz” inqilabi məzmunda yazılmış ilk Azərbaycan operası...” olmaqla, ilk dəfə opera səhnəmizdə müasir həyatımızın qəhrəman obrazlarını yaratmışdır.

Görkəmli sovet musiqişünası S.Korev yazır: “Nərgiz” realistik sovet operasıdır. İdeyaca dolğun, bədii fikir etibarilə dərindir. “Nərgiz” operası bizim müasir həyatdan alınan sovet inqilabi-qəhrəmanlıq temasını əks etdirən, ideya-bədii səviyyəsi yüksək olan, səhnə əsərlərindən birincisi kimi sovet musiqili teatr tarixinə daxil olacaqdır”.

“Nərgiz” operası dramaturji baxımdan yüksək səviyyəli sənət əsəridir. Burada ənənə və novatorluq prinsipləri sıx vəhdət təşkil edir. Operanın librettosu M.S.Ordubadlıya məxsusdur. Bu əsərin diqqətəlayiq xüsusiyyətlərindən biri o illərin milli operası üçün yeni olan musiqi dilinin intonasiya obrazlı quruluşudur ki, bu da ondan əvvəl yaranmış əsərlərdən fərqlidir. “Nərgiz” əsərində bəstəkarın xalq musiqisi incilərinə yaradıcı münasibətinin şahidi oluruq, belə ki, M.Maqomayev xalq musiqi materialını opera formalarına tətbiq edərək, musiqi dilinin yeni, ifadəli, səciyyəvi xüsusuyyətlərini üzə çıxarmışdır. Bütün bunlar Azərbaycan operasının inkişafında, onun dinamik yüksəlişində və bəstəkarların yaradıcılıq axtarışlarında olduqca böyük əhəmiyyət kəsb etmişdir.

1938-ci ildə Moskvada keçirilən Azərbaycan İncəsənət Dekadası günlərində “Nərgiz” operasının tamaşası uğurla keçdi.

M.Maqomayevin vəfatından sonra operanın yeni redaksiyasını tanınmış sovet bəstəkarı R.M.Qliyer işləmişdir. Operanın quruluşçu rejissoru S.Dadaşov, rəssamları N.A.Mustafayev və İ.Axundov, dirijoru Niyazi, Nərgiz rolunun ifaçısı isə görkəmki müğənnimiz Şövkət Məmmədova idi. Opera bir çox

tanınmış bəstəkarlar, musiqişünaslar tərəfindən yüksək qiymətləndirilmişdir.

Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasında M.Maqomayevin yaradıcılığı geniş miqyasda təbliğ olunur. Düşünürəm ki, onun arxivində biz musiqişünaslar üçün hələ də araşdırılmayan çox gözəl, maraqlı materiallar var.

Bəstəkar bizim üçün olduqca əziz insandır, çünki o dahi müğənnimiz Müslüm Maqomayevin babasıdır.

Məqaləmi dahi Ü.Hacıbəylinin gözəl sözləri ilə tamamlamaq istərdim: "Kompozitor M.Maqomayev Azərbaycan musiqi sənətinin inkişafı yolunda duran bütün maneələri amansızcasına məhv edən cəsarətli novator, həqiqi realist, öz mahiyyəti və məqsədi etibarilə sırf xalq kompozitoru idi".

**İmruz Əfəndiyeva,**
*Sənətşünaslıq doktoru,*
*Əməkdar incəsənət xadimi,*
*Ü.Hacıbəyli adına Bakı Musiqi*
*Akademiyasının professoru*

## MÜSLÜM MAQOMAYEVİN HƏYAT VƏ YARADICILIĞININ ƏSAS TARİXLƏRİ

**1885** - Əbdül Müslüm Məhəmməd oğlu Maqomayev 1885-ci il sentyabrın 5-də (18-də) Qroznı şəhərində dəmirçi ailəsində anadan olmuşdur.

**1897-1899** - Qroznı şəhər ikiillik məktəbində oxumuşdur.

**1899** - Qori Zaqafqaziya Müəllimlər Seminariyasının tələbəsi olmuşdur.

**1900** - Folklor yazıları Parisdəki dünya sərgisində nümayiş etdirilmişdir.

**1904** - Qori Müəllimlər Seminariyasını əla qiymətlərlə bitirmişdir.

**1904-1905** - Bekoviçi aulunda məktəb müdiri və nəğmə müəllimi vəzifəsində çalışmış, şagird xoru təşkil etmişdir.

**1905-1911** - Lənkəran şəhər məktəbində müəllim isləmişdir;

- Pedaqoji fəaliyyəti ilə yanaşı şagird xoru və dram dərnəyinin, balalaykaçılar və nəfəsli alətlər orkestrinin təşkilatçısı və rəhbəri olmuşdur.

**1909** - Tiflis Pedaqoji İnstitutunda müvəffəqiyyətlə imtahan verərək şəhər məktəblərində müəllimlik etmək hüququ almışdır.

**1911** - Bakıya köçmüş, Sabunçuda müəllim, Azərbaycan opera teatrında skripkaçı işləmişdir.

**1911-1914** - Bakı şəhəri Sabunçu qəsəbəsində yerləşən texnikumda müəllimlik etmiş, tələbələrdən ibarət xor və orkestr təşkil etmiş və onların rəhbəri olmuşdur;

- Ü.Hacıbəylinin "Leyli və Məcnun", "Əsli və Kərəm" və s. Azərbaycan operalarının tamaşaya qoyulmasında yaxından iştirak etmiş və ilk vaxtlarda skripkaçı kimi çıxış etmişdir.

**1912** - "Şah İsmayıl" operasını yazmışdır;

- Nicat Cəmiyyəti tərəfindən türk operasına dirijor kimi dəvət olunmuşdur;

- Ü.Hacıbəylinin "Əsli və Kərəm" operasının tamaşasında ilk dəfə dirijor kimi çıxış etmişdir. Sonralar teatrın daimi dirijoru və opera tamaşalarının təşkilatçısı olmuşdur.

**1913** - H.Z.Tağıyevin teatrında Ü.Hacıbəylinin "Arşın mal alan" musiqili komediyasının premyerasında dirijorluq etmişdir.

**1913-1914** - "Məhəbbət" adlı (bitməmiş) opera yazmışdır.

**1914-1915** - Bakıda müsəlman opera truppasını yaratmış və ona rəhbərlik etmişdir.

**1914-1930** - Bakı şəhər texnikumunda müəllim işləmişdir.

**1915** - Ü.Hacıbəylinin "Rüstəm və Söhrab" operasının yeni redaksiyada premyerasına dirijorluq etmişdir.

**1919** - Bakı Birinci Ali İbtidai Texnikumunun inspektoru işləmişdir;

- "Şah İsmayıl" operasının ilk premyerası olmuşdur.

**1920** - 26 nömrəli sovet ümumtəhsil məktəbinin direktoru işləmişdir;

- Azərbaycan Sosialist Mədəniyyəti və Maarif İşçilərinin I qurultayında musiqi mədəniyyətimiz haqqında çıxış etmişdir;

- Azərbaycan SSR Maarif və Sosialist Mədəniyyəti İşçiləri İttifaqının İcraiyyə Komitəsinin sədri işləmişdir;

- Azərbaycan Həmkarlar İttifaqı Şurası plenumunun üzvü olmuşdur;

- Hüseyn Cavidin "İblis" pyesinə uvertüra və vakxanaliya kimi parçalar yazmışdır.

**1921** - II çağırış Bakı Sovetinə deputat seçilmişdir;

- Azərbaycan SSR Xalq Maarif Komissarlığının İncəsənət şöbəsinin rəhbəri olmuşdur;

- Türk Dram Teatrının direktoru təyin edilmişdir;

- İncəsənət İşçiləri İttifaqının III qurultayında çıxış etmişdir.

**1923** - "Kommunist" qəzetinin mininci buraxılışına həsr olunmuş konsertdə Hüseyn Cavidin "İblis" pyesinə musiqi, uvertüra və vakxanaliya ifa edilmişdir;

- XMK-nın İncəsənət şöbəsinin müdiri vəzifəsi ilə bərabər D.Bünyadzadə adına yeni açılan Türk Dövlət Teatrına direktor təyin olunmuşdur.

**1924** - Azərbaycan Dövlət Opera və Balet Teatrının direktoru, bədii rəhbəri və dirijoru işləmişdir.

**1927** - "Azərbaycan türk el nəğmələri" adlı kitabın redaktoru olmuş, burada özünün, Üzeyir və Zülfüqar Hacıbəyovun nota aldığı mahnılar toplanmışdır.

**1928** - İlk simfonik əsəri - "Azərbaycan çöllərində" rapsodiyasını yazmışdır.

**1929** - "Xoruz bəy" 4 pərdəli satirik musiqili komediyasını yazır;

- Azərbaycan radio mərkəzində musiqi rəhbəri vəzifəsində çalışır;

- “Azad azəri qadını” rəqsi, “Pionerlər marşı”, “Dərviş” və “Pişdəramədi çahargahı fantaziyaları” adlı simfonik əsərlərini bitirir.

**1930** - “PB-8” adı ilə məşhur olan radio marşını yazmışdır.

**1931** - Leninqrad Akademik Filarmoniyasında Azərbaycan musiqisindən ibarət konsertdə “Azərbaycan çöllərində” rapsodiyası səslənmişdir.

**1931-1932** - Bakı kinostudiyası üçün ilk səsli filmlərə - “Lökbatan” və “Bizim raport” filminə musiqi yazmışdır;

- Aşqabad radiosuna bir sıra Azərbaycan mahnılarının not köçürmələrini, o cümlədən “Bizim kənd”, “Zərbəçinin nəğməsi”, “May”, “Zərbəçi yoldaşım” yazdığı nəğmələri təqdim etmişdir.

**1932** - “Nərgiz” operasını yazmışdır;

- “Çobanlar” musiqili radio-kompozisiyasını bitirir;

- C.Məmmədquluzadənin “Ölülər” dramına musiqi yazır;

- Azərbaycan Dövlət Opera və Balet Teatrının səhnəsində M.S.Ordubadinin “Bu gün” pyesi M.Maqomayevin musiqisi ilə tamaşaya qoyulur;

- "Şah İsmayıl"ın son üçüncü redaksiyasını işləyib hazırlamışdır.

**1933** - "Şəlalə" simfonik pyesini və "Ceyran" rapsodiyasını bitirir;

- C.Cabbarlının "1905-ci ildə" pyesinə musiqi yazır.

**1934** - Azərbaycan Dövlət Opera və Balet Teatrında "Nərgiz" operasından parçalar səslənir;

- Sov.İKP MK-nın XVII qurultayına həsr edilmiş marş yazmışdır;

- "PB-8 marşı", "Turacı", "Əsgərani", "Ağac aul" rəqsini, "Şüştər" rəngi, "Şur" təsnifi və "Şüştər dəramədi" fantaziyası kimi kiçik simfonik əsərlərini yazmışdır.

**1935** - Leninqrad kinostudiyasının istehsal etdiyi "Непрерывная цепь" adlı kinofilmə musiqi yazmışdır;

- "Azərbaycan incəsənəti" adlı yeni səsli filmin musiqi tərtibatını vermişdir;

- Azərbaycanda Sovet hakimiyyəti qurulmasının 15-ci ildönümü münasibətilə "Nərgiz" operasının ilk tamaşasında dirijorluq etmişdir.

**1936** - "Dəli Muxtar" adlı 4 aktda balet yazmışdır;

- Azərbaycan SSR Xalq Komissarları Şurasının qərarı ilə Əməkdar incəsənət xadimi adına layiq görülmüşdür.

**1937, 28 iyul** - Nalçik şəhərində vəfat etmiş, Bakı şəhərində "Fəxri Xiyaban"da dəfn edilmişdir.

**1937** - Azərbaycan SSR Nazirlər Sovetinin qərarı ilə Azərbaycan Dövlət Filarmoniyasına, Bakı şəhərinin (İçərişəhər) və Buzovna qəsəbəsinin küçələrindən birinə Müslüm Maqomayevin adı verilmişdir.

## GÖRKƏMLİ ŞƏXSİYYƏTLƏR MÜSLÜM MAQOMAYEV HAQQINDA

"Şah İsmayıl" operasının əhəmiyyəti təkcə sənət əsəri olmaqla bitmir. Müslüm Maqomayev bu mövzuya sadəcə olaraq bəstəkar, incəsənət xadimi kimi deyil, Azərbaycanın tarixini gözəl bilən bir insan kimi müraciət etmişdir. Axı Şah İsmayıl görkəmli sərkərdə, Azərbaycan şahı olmuşdur. O dövrdə tarixi keçmişimizdən kimin kim olduğunu söyləmək bizim üçün çətin idi. İndi isə açıq deməyə imkanımız var ki, Şah İsmayıl görkəmli dövlət xadimi, siyasi şəxsiyyət, Azərbaycanı birləşdirən insandır. Azərbaycanın qədim dövlətçiliyi Şah İsmayılın adı ilə bağlıdır. Müslüm Maqomayevin də bu mövzuya müraciət edərək belə gözəl opera yazmasının incəsənət üçün əhəmiyyəti böyükdür, həmçinin böyük tarixi, siyasi əhəmiyyəti var".

**HEYDƏR ƏLİYEV,**
***ümummilli lider***

"Bəşər tarixində elə şəxsiyyətlər var ki, onlar tək özləri üçün yox, bütün xalqın, bəlkə də bütün bəşəriyyətin xoşbəxtliyi naminə həyata gəliblər. Belə insanlar xalqa nəinki sağlığında, hətta ölümündən sonra da xeyir gətirirlər.

Müslüm Maqomayev əsl realist xalq bəstəkarı idi, Azərbaycan musiqi incəsənəti yolunda duran bütün sədləri amansızcasına vurub dağıdan cəsarətli novator idi."

**ÜZEYİR HACIBƏYLİ,**
***SSRİ Xalq artisti, bəstəkar***

“M.Maqomayev Azərbaycan musiqi mədəniyyətinin inkişafında, ən çətin və mürəkkəb dövrlərində onun ön cəbhəsində dayanan parlaq simalardan biridir. O, Azərbaycan musiqi sənəti tarixinə çoxcəhətli istedada malik sənətkar, müəllim-maarifçi və ictimai xadim kimi daxil olmuşdur”.

**TOFİQ QULİYEV,**
***Azərbaycanın Xalq artisti, bəstəkar***

“Musiqi tariximizin görkəmli xadimi mövqeyində dayanan Müslüm Maqomayev bəstəkar, dirijor, şəxsiyyət, fərd, insan kimi - yaşadığı illərin, dövrün məhsuludur, bəhrəsidir. Həm də bu dövr - uçurumla aralanmış iki parçaya bölünüb - inqilabdan əvvəlki və sonrakı illər. Müslüm Maqomayev ömrünün inqilabdan qabaqkı səhifələri - Qori seminariyası, Üzeyir Hacıbəyovla tanışlıq, dostluq. Əyalətdə müəllimlik, Bakıya gəlib qəti surətdə musiqi aləminə daxil olması, dirijorluq fəaliyyəti və nəhayət, bir bəstəkar kimi başıbəlalı debütü - “Şah İsmayıl”. “Şah İsmayıl”ın daşdan çıxan, daha doğrusu, yanğının odundan-alovundan çıxan, sonralarsa Ərəblinskinin ölüm günüylə qovuşan premyerası...

İkinci dövr - inqilabdan sonrakı ruh yüksəkliyi, yeni mədəniyyətin çətin və fərəhli quruculuğu, bu quruculuğun sevinci, həvəsi və əyintiləri, ifratları, acıları-ağrıları”.

**ANAR,**
***Xalq yazıçısı***

Müslüm Maqomayev.

Belə bir bəstəçimiz, belə bir dirijorumuz olub. Hamı kimi o da bir ömür yaşayıb! Üğurları da olub, büdrəmələri də, faydalı, dəyərli işləri də olub, nöqsanları da, sevincləri də olub, kədərləri də, gerçəkləşən ümidləri də olub, həyata qovuşmayan arzuları da...

Elə işləri, elə niyyətləri, elə mübarizələri, elə gileyləri olub ki, illər onları həmin o qeyri-adi məktubdakı yazılar kimi oxunmaz edib, soldurub-saraldıb, özüylə aparıb, unutdurub.

**RAFAEL HÜSEYNOV,**
***Filologiya elmləri doktoru,***
***professor***

"Nərgiz" operasının yaranması Azərbaycanda opera sənətinin inkişafını göstərən və Azərbaycan bəstəkarlarını müasir həyatımızın ən ciddi məsələlərinə və həyati mövzularına müraciət etdiyini nümayiş etdirən canlı bir faktdır. Bu əsərin yaranması göstərdi ki, respublikanın bəstəkarları müasir həyata, zəmanəmizin qəhrəmanlarına, sovet xalqına yaxın olan mövzularda dərin, mənalı, gözəl əsərlər yarada bilərlər.

**QUBAD QASIMOV,**
***tarix elmləri namizədi***

Müslüm Maqomayev Azərbaycan muğamları ilə nəfəs alırdı və onlarda nə qədər tükənməz yaradıcılıq ehtiyatının cəmləşdiyini yaxşı bilirdi, və o, ustalıqla bu tükənməzlikdən istifadə edib bir-birindən gözəl əsərlər yaradırdı.

**ƏLİSA NİCAT,**
***yazıçı, tarixçi, filosof***

M.Maqomayevin "Nərgiz" operası nəinki Azərbaycanın, habelə bütün sovet incəsənətinin böyük qələbəsidir. "Nərgiz"in musiqisi parlaq melodiyaların sonsuz axınıdır.

**KƏRİM KƏRİMOV,**
***Xalq artisti***

Müslüm Maqomayevin "Şah İsmayıl" operası yerli motivlər üzərində, muğamlarımızdan geniş istifadə olunmaqla yazılmışdı. Bu əsər Şərq və Qərbi birləşdirmək yolunda ilk cəhd idi. Operanın tamaşaları çox böyük müvəffəqiyyətlə keçirdi, ancaq buna baxmayaraq müəllif əsərin üzərində ara vermədən işləyir, ariyaları və Şah İsmayılın duetlərini təkmilləşdirirdi.

**AZAD ŞƏRİF,**
***jurnalist***

Məni opera teatrına aparan məşhur bəstəkarımız Müslüm Maqomayev olmuşdur. O zaman Müslüm bəy teatrın baş direktoru idi. O məni tez-tez teatra dəvət edirdi və operaların bəzi səhnələrində oxuyanları müşayiət etməyi mənə tapşırırdı. Beləliklə, mən muğam operalarını mükəmməl öyrənmişdim.

**BƏHRAM MƏNSUROV,**
***Azərbaycan Xalq artisti, tarzən***

# Ə S Ə R L Ə R İ

## *OPERALAR*

### 1940

1. **“Nərgiz” operasından Nərgizin mahnısı** [Not] /M.Maqomayev.- Bakı, 1940.- 2 s.

2. **Nərgizin nəğməsi**: “Nərgiz” operasından [Not] /M.Maqomayev.- Bakı, 1940.- 3 s.

### 1950

3. **“Nərgiz”** operasından yallı [Not]: tar ilə fortepiano üçün /M.Maqomayev.- Bakı: Azmusiqinəşr, 1950.- 14 s.

4. **Nərgizin ariyası və nəğməsi** [Not] /M.Maqomayev.- Bakı: Azmusiqinəşr, 1950.- 12 s.

### 1951

5. **“Nərgiz”** operasından Nərgizin mahnısı [Not] /M.Maqomayev.- Bakı: Azmusiqinəşr, 1951.- S.y.

6. **“Nərgiz”** operasından uvertüra [Not]: Partitura /M.Maqomayev.- Bakı: Azmusnəşr, 1951.- 72 s.

7. **“Nərgiz”** operasından yoxsulların xoru [Not] /M.Maqomayev //Azərbaycan bəstəkarları: Birgə xor və fortepiano üçün.- Bakı, 1951.

### 1953

8. **“Şah İsmayıl”** operasından rəqs [Not]: tar və fortepiano üçün /M.Maqomayev.- Bakı: Azmusiqinəşr, 1953.- 7 s.

## 1954

**9. “Şah İsmayıl”** operasından seçilmiş parçalar [Not]: fortepiano üçün asanlaşdırılmış köçürmə /M.Maqomayev; işləyəni Z.Stelnik.- Bakı: Azmusiqinəşr, 1954.- 15 s.

## 1955

**10. “Nərgiz”** operasından Əlyarın ariyası [Not]: fortepiano ilə oxumaq üçün /M.Maqomayev.- Bakı: Azmusiqinəşr, 1955.- 12 s.

## 1958

**11. Ü.Hacıbəyovun və M.Maqomayevin** operalarından seçmə parçalar [Not] /Ü.Hacıbəyov, M.Maqomayev; fortepiano üçün uyğunlaşdıran M.Əliyeva.- Bakı: Azərbaycan musiqi nəşriyyatı, 1958.- 34 s.

## 1961

**12. “Nərgiz”** operasından Nərgizin ariyası [Not] /M.Maqomayev //Azərbaycan bəstəkarlarının operalarından ariyalar: səs ilə fortepiano üçün.- Bakı, 1961.

## 1966

**13. “Nərgiz”** operasından Nərgizin mahnısı [Not] /M.Maqomayev //Azərbaycan bəstəkarlarının seçilmiş ariyaları: soprano ilə fortepiano üçün.- Bakı, 1966.- 12 s.

## 1968

**14. “Nərgiz”** operasından Əlyarın ariyası [Not]: 3-cü pərdə /M.Maqomayev //Azərbaycan musiqisinin tarixinə dair müntəxəbat.- Bakı, 1968.

**15. “Nərgiz”** operasından Nərgizin ariyası [Not]: 1-ci pərdə /M.Maqomayev //Azərbaycan musiqisinin tarixinə dair müntəxəbat.- Bakı, 1968.

**16. “Nərgiz”** operasından Nərgizin mahnısı [Not]: 4-cü pərdə /M.Maqomayev //Azərbaycan musiqisinin tarixinə dair müntəxəbat.- Bakı, 1968.

**17. “Nərgiz”** operasından yoxsulların xoru [Not]: 3-cü pərdə /M.Maqomayev //Azərbaycan musiqisinin tarixinə dair müntəxəbat.- Bakı, 1968.

**18. “Şah İsmayıl”** operasından Şah İsmayıl və Gülzarın dueti [Not]: 2-ci pərdə /M.Maqomayev //Azərbaycan musiqisinin tarixinə dair müntəxəbat.- Bakı, 1968.- S.21.

## 1971

**19. “Nərgiz”** operasından Nərgizin ariyası [Not] /söz. və mus. M.Maqomayevindir //Azərbaycan mahnıları: Azərbaycan bəstəkarlarının vokal əsərləri.- Kiyev, 1971.- S.54.

## 1975

**20. Əlyarın ariyası** [Not] /M.Maqomayev //Operalardan parçalar.- Bakı, 1975.- S.14-27.

**21. Nərgizin xor ilə mahnısı** [Not]: 1-ci pərdə /M.Maqomayev //Operalardan parçalar.- Bakı, 1975.- S.3-10.

**22. Nərgizin mahnısı** [Not]: 3-cü pərdə /M.Maqomayev //Operalardan parçalar.- Bakı, 1975.- S.11-13.

**23. Operalardan parçalar** [Not] /M.Maqomayev; tərt. ed. və red-ru Ə.Abbasov.- Bakı: İşıq, 1975.- 46 s.

**24. "Şah İsmayıl"** operasından rəqslər [Not] /M.Maqomayev //Operalardan parçalar.- Bakı, 1975.- S.27-33.

**25. "Şah İsmayıl"** operasından uvertüra [Not] /M.Maqomayev //Operalardan parçalar.- Bakı, 1975.- S.23-36.

**26. Yoxsulların xoru** [Not] /M.Maqomayev //Operalardan parçalar .- Bakı, 1975.- S.34, 45.

### 1976

**27. "Nərgiz"** operasından Nərgizin mahnısı [Not]: fortepiano üçün /M.Maqomayev; transkripsiya Q.Burşteynindir.- Bakı: Azərnəşr, 1976.

## *MAHNILAR*

### 1992

**28. Radio marşı** [Not] /M.Maqomayev //Azərbaycan bəstəkarlarının əsərləri: kamança ilə fortepiano üçün köçürmə.- Bakı, 1992.- S.32.

### 2005

**29. Yaz** [Not] /M.Maqomayev; söz. M.S.Ordubadinindir; xor üçün işləyəni R.Şəfəqdir //Uşaq mahnıları.- Bakı, 2005.- C.3.- S.190.

## *FORTEPİANO ÜÇÜN YAZILMIŞ ƏSƏRLƏR*

### 1950

**30. Yallı** [Not]: "Nərgiz" operasından tar və fortepiano üçün köçürmə /M.Maqomayev.- Bakı: Azərnəşr, 1950.- 14 s.

### 1952

**31. 8 pyes** [Not] /M.Maqomayev; red.: K.Səfərəliyeva, Q.Burşteyn.- Bakı: Azərnəşr, 1952.

### 1953

**32. Rəqs** [Not]: Şah İsmayıl operasından tar ilə forte-piano üçün köçürmə /M.Maqomayev.- Bakı: Azdövmusnəşr, 1953.- 7 s.

### 1954

**33. "Şah İsmayıl"** operasından seçilmiş parçalar [Not]: fortepiano üçün asanlaşdırılmış köçürmə /M.Maqomayev.- Bakı: Azmusnəşr, 1954.- 15 s.

### 1955

**34. "Nərgiz"** operasından Əlyarın ariyası [Not]: forte-piano ilə oxumaq üçün /M.Maqomayev.- Bakı: Azdövmusnəşr, 1955.- 10 s.

## 1967

**35. “Nərgiz”** operasından Nərgizin mahnısı [Not] /M.Maqomayev; fortepiano üçün transkripsiya edəni G.Burşteyn.- Bakı, 1967.- 8 s.

## *XALQ MAHNILARININ TOPLANMASI VƏ İŞLƏNMƏSİ*

## 1927

**36. Azərbaycan el musiqisi** [Not]: xalq mahnıları /M.Maqomayev.- Bakı: Azərnəşr, 1927.- S.y.

**Məzmunu:** Ağac başında qora; A dağlar; A dili-dili; Azərbaycan; Ay qız kimin qızısan; Alyoşa; Almas; Altı nömrə; Aman nənə; Aşxabadı; Bağa girdim: Xalq mahnısının səs ilə simfonik orkestr üçün işlənməsi; Bala-bəyi; Beş atılan; Bənövşə; Boyuna qurban; Brilyant; Bu dünyada daş yüklədim: Xalq mahnısının səs ilə simfonik orkestr üçün işlənməsi; Vaxt var ikən: Xalq mahnısının səs ilə simfonik orkestr üçün işlənməsi; Qaşı kaman, gözləri qara; Qaşın arasında xalı; Qəşəngi; Kiri-kiri; Qızıl gül; Qusar çay; Dağıstan; Dərviş xanı; Dərə kənarında; Dilican; Durna, Dürand; Ekspress; Əmi oğlu; Əndican; Zalon gəlir; Zibeydə; Zonuşak; Züleyxa; İndiqo; İnnabı; İrani; Yapon mazey; Yerevan guşəsi; Yeri ha; Yulduz; Yüz bir; Kerəçi; Keçi məməsi; Kişmiri şal; Knarik: Erməni xalq mahnısının səs ilə orkestr üçün işlənməsi; Koroğlu; Kürdi; Küçələrə su səpmişəm; Gəmi; Ginəlim; Gözəlim; Göydə göyərçin olar; Gül açdı: Xalq mahnısının səs ilə orkestr üçün işlənməsi; Gül baxçalar; Gül nazanım; Lətifə; Manuçari; Mahur rəngi; Mən Abbasam; Mən gəlirdim; Mübaydə; Napalyon; Nigar; Nilufər; On dörd; Onluq; Osmanlı; O xal nə xaldır; Pai tütbər; Pambuhi; Pişdəramadi mahur; Rast; Rast rəngi; Rəng; Sarı bülbül; Sava-

lanın bir üzü; Seyid Abbas; Səndən mənə yar olmaz: Xalq mahnısının səs ilə orkestr üçün işlənməsi; Telefon; Ləzgi rəqs mahnısı; Tərəkəmə; Uca dağlar; Fason; Xala-bacı; Xurcun; Ha lolo; Hökm olub; Çahargah rəngi; Çervon; Çim qala; Ceyranı; Ciki-ciki; Corciyaşvili; Şalaxo; Şalon; Şahnaz rəngi; Şubanı; Şur təsnifi; Şuşanik.

37. **Azərbaycan türk xalq nəğmələri** [Not] /M.Maqomayev, Ü.Hacıbəyov.- Bakı: Azərnəşr, 1927.- 5 s.

**Məzmunu:** Bağçadan gələn səs; Qalalıyam; Dağıstan dağ yeridir; Gözəlim sənsən; Gəl-gəl; Həştərxana gedən; Qarabağ şikəstəsi; El yallı; Yeləli; Üç telli durna; Küçələrə su səpmişəm; Uca bir azaram.

**1928**

38. **Azərbaycan xalq mahnılarının** orkestr üçün işlənməsi [Not] /M.Maqomayev.- Bakı: Azərnəşr, 1928.- 77 s.

**1985**

39. **Azərbaycan el nəğmələri** [Not]: Ü.Hacıbəyov və M.Maqomayevin anadan olmasının 100 illiyinə /Nota salanları və harmonizə edənləri: Ü.Hacıbəyov, M.Maqomayev; red. və şərhlərin müəllifi B.Hüseynli.- Bakı: İşıq, 1985.- 67 s.

**Məzmunu:** Ninni; Beşik başında; Tütü nənəm; İş başına; Səhər-səhər yaz çağı; Zəhmətin işığı; Şəfəq sökülərkən; Çıxdı günəş; Çək, şumla yeri; Biçinçiyəm; Bir quş düşdü havadan; Yetim quzu; Qarabağ şikəstəsi; El yallı; Yelləli; Üç telli durna; Küçələrə su səpmişəm; Uca barıdan aşaram; Qara qız; Gözəlim sənsən; Gəl-gəl; Dağıstan dağ yeridir; Qalada yatmış idim; Evlərinin dalı qaya; Əlində sazın qurbanı; Ayın aydanlığı; Anama deyin; Həştərxana gedən; Bağçadan gələn səs; Qalalıyam; Bağın bağımca varmı; Dağlarda çiçək; Saçın ucun hörməzlər; Şərhlər.

## AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ ƏLYAZMALAR İNSTİTUTUNDA SAXLANILAN ƏLYAZMALARI

### *OPERALAR*

### 1914

**40. İblis:** (opera): Hüseyn Cavidin pyesi əsasında /M.Maqomayev //Azərbaycan EA Əlyazmalar İnstitutu.- Fond № 5.- S.v.113.

**41. Məhəbbət**: 4 pərdəli bitməmiş opera /M.Maqomayev; librettosu Ə.S.İbrahimovundur //Azərbaycan EA Əlyazmalar İnstitutu.- Fond № 5.- S.v. 113.

**Əlyazmanın içindəkilər:** Aslanın mahnısı, ariyası (1 pərdə); səs üçün partiya (IV pərdə); axırıncı səhnədən parça.

### 1919

**42. Şah İsmayıl**: 5 pərdəli opera /M.Maqomayev; libretto: M.Q.İsmayılzadə, M.Maqomayev.- Partitura və klavir //Azərbaycan EA Əlyazmalar İnstitutu.- № 5.- S.v.7; 11.

Premyera 1919-cu il martın 7-də Bakıda H.Q.Sarabskinin iştirakı ilə keçmişdir. Rejissoru - H.Ərəblinski, dirijor - müəllif; əsas rollarda: Aslan şah - H.Şərifov; Gülzar - Y.Olenskaya; Vəzir - H.Abbasov; Əbu Həmzə - H.Hüseynov.

1924-1925-ci il mövsümündə opera Azərbaycan Dövlət Opera və Balet Teatrının səhnəsində yeni, ikinci quruluşda göstərilmişdir.

1932-ci il oktyabrın 5-də M.F.Axundov adına Azərbaycan Dövlət Opera və Balet Teatrının səhnəsində operanın üçüncü quruluşunun premyerası keçirilmişdi. Quruluşçu rejissor - H.Sarabski; dirijor - müəllif; xormeysterlər - Y.Qrossman, H.Həsənov; solo tarda - Q.Pirimov; əsas rollarda: Aslan şah - M.H.Terequlov; Şah İsmayıl - H.Hacıbababəyov; Gülzar-

Y.Əhmədova; Ərəb Zəngi - H.Rzayeva; Vəzir - H.Hüseynov; Münəccim - A.İsgəndərov; İbn-Tahir - B.Mustafayev; Əbu Həmzə - Ə.Zülalov.

## 1935

**43. Nərgiz**: 4 pərdəli opera /M.Maqomayev; librettosu M.S.Ordubadinin və M.Maqomayevindir.- Partitura və klavir //Azərbayan EA Əlyazma İnstitutu.- Fond № 25.- S.v. 3;5.

Premyera 1935-ci il dekabrın 24-də Bakıda M.F.Axundov adına Azərbaycan Dövlət Opera və Balet Teatrının səhnəsində keçirildi. Quruluşçu rejissor - A.Tuqanov; dirijor - müəllif; baletmeyster - İ.Arbatov; rəssam - M.Saqinyan; geyim eskizləri - Ə.Əzimzadənindir; əsas rollarda: Nərgiz - A.Terequlova; Əlyar - H.Hacıbababəyov; Cəfər - Y.Rzayev; Ağalar bəy - M.Bağırov; Həsən kişi - B.Mustafayev; Bədəl - H.Hüseynov; Molla Mütəllib - Ə.Zülalov.

# *BALET VƏ MUSİQİLİ KOMEDİYALARI*

## 1929

**44. Dəli Muxtar**: 4 pərdəli balet /M.Maqomayev //Azərbaycan EA Əlyazmalar İnstitutu.- Fond № 25.- S.v. 115.

**45. Xoruz bəy**: 4 pərdəli satirik musiqili komediya; səs və fortepiano üçün /M.Maqomayev //Azərbaycan EA Əlyazmalar İnstitutu.- Fond № 25.- S.v. 115.

## *DRAM ƏSƏRLƏRİNƏ VƏ KİNOFİLMLƏRƏ YAZILMIŞ MUSİQİSİ*

### 1931

**46. Lökbatan**: Bakı kinostudiyasında çəkilmiş oçerk.- /M.Maqomayev.- Partitura //Azərbaycan EA Əlyazmalar İnstitutu.- Fond № 25.- S.v. 21.

**47. Ölülər**: C.Məmmədquluzadənin dramına yazılmış musiqi /M.Maqomayev //Azərbaycan EA Əlyazmalar İnstitutu.- Fond № 25.- S.v. 7.

### 1932

**48. Bizim raport**: filmə musiqi /M.Maqomayev.- Partitura //Azərbaycan EA Əlyazmalar İnstitutu.- Fond № 25.- S.v. 110.

### 1933

**49. 1905-ci ildə**: C.Cabbarlının pyesinə yazılmış musiqi /M.Maqomayev //Azərbaycan EA Əlyazmalar İnstitutu.- Fond № 25.- S.v. 113.

**Əlyazmanın içindəkilər:** Uvertüra, Sonanın, Eyvazın, qubernatorun, Volodinin leytmotivləri, Sonanın və Eyvazın səhnəsi, xor, mazurka, polka (rəqs).

### 1935

**50. Cənnətə yol**: filmə musiqi /M.Maqomayev //Azərbaycan EA Əlyazmalar İnstitutu.- Fond № 25; arx. 41-26270.

## *SİMFONİK ƏSƏRLƏRİ VƏ ORKESTR İŞLƏMƏLƏRİ*

### 1927

**51. Şur təsnifi**: fantaziya /M.Maqomayev.- Partitura //Azərbaycan EA Əlyazmalar İnstitutu.- Fond № 25.- S.v. 18.

### 1927-1934

**52. Ağac-aul**: ləzginka /M.Maqomayev.- Partitura //Azərbaycan EA Əlyazmalar İnstitutu.- Fond № 25.- S.v. 110.

**53. Kiçik fantaziya** /M.Maqomayev.- Partitura //Azərbaycan EA Əlyazmalar İnstitutu.- Fond № 25.- S.v. 110.

**54. Meçtaniye**: vals /M.Maqomayev.- Partitura //Azərbaycan EA Əlyazmalar İnstitutu.- Fond № 25.- S.v. 110.

**55. Seminarist**: mazurka /M.Maqomayev.- Partitura //Azərbaycan EA Əlyazmalar İnstitutu.- Fond № 25.- S.v. 20.

**56. Şərq rəngi**: fantaziya /M.Maqomayev.- Partitura //Azərbaycan EA Əlyazmalar İnstitutu.- Fond № 25.- S.v. 113.

**57. Şüştər rəngi**: rapsodiya /M.Maqomayev.- Partitura //Azərbaycan EA Əlyazmalar İnstitutu.- Fond № 25.- S.v. 18.

### 1928

**58. Azərbaycan çöllərində**: rapsodiya /M.Maqomayev.- Partitura //Azərbaycan EA Əlyazmalar İnstitutu.- Fond № 25.- S.v. 108.

### 1930

**59. Azad azəri qadınının rəqsi** /M.Maqomayev.- Partitura //Azərbaycan EA Əlyazmalar İnstitutu.- Fond № 25.- S.v. 113.

**60. Dərviş:** simfonik pyes /M.Maqomayev.- Partitura //Azərbaycan EA Əlyazmalar İnstitutu.- Fond № 25.- S.v. 110.

**61. Əsgərani**: simfonik pyes /M.Maqomayev.- Partitura //Azərbaycan EA Əlyazmalar İnstitutu.- Fond № 25.- S.v. 110.

## 1931

**62. Çeçen rəqsi və mahnısı**: simfonik pyes /M.Maqomayev.- Partitura //Azərbaycan EA Əlyazmalar İnstitutu.- Fond № 25.- S.v. 113.

**63. Marşlar** /M.Maqomayev.- Partituralar //Azərbaycan EA Əlyazmalar İnstitutu.- Fond № 25.- S.v. 110.

**Əlyazmanın içindəkilər:** Pionerlər marşı; Azərbaycan radio marşı - RV-8; Sovet İttifaqı Kommunist Partiyasının XVII qurultayına həsr olunmuş marş; İrəli; Yeni qələbələrə; Kolxozçular marşı; Marş.

## 1933

**64. Ceyran**: rapsodiya /M.Maqomayev.- Partitura //Azərbaycan EA Əlyazmalar İnstitutu.- Fond № 25.- S.v. 18.

**65. Şəlalə**: simfonik pyes /M.Maqomayev.- Partitura //Azərbaycan EA Əlyazmalar İnstitutu.- Fond № 25.- S.v. 18.

## *MAHNILARI*

## 1929

**66. İsmayıl Eloğlu** [Not]: səs və fortepiano üçün /M.Maqomayev; söz. adı məlum olmayan şairindir //Azərbaycan EA Əlyazmalar İnstitutu.- Fond № 25.- S.v. 113.

**67. Şur dəramədi**: fantaziya /M.Maqomayev.- Partitura //Azərbaycan EA Əlyazmalar İnstitutu.- Fond № 25.- S.v. 110.

**68. Yeri-ha-yeri** [Not]: səs və fortepiano üçün /M.Maqomayev; sözləri adı məlum olmayan şairindir //Azərbaycan EA Əlyazmalar İnstitutu.- Fond № 25.- S.v. 113.

**1930**

**69. Mahnı** [Not]: səs və fortepiano üçün /M.Maqomayev; söz. M.Axundovundur //Azərbaycan EA Əlyazmalar İnstitutu.- Fond № 25.- S.v. 113.

**1931-1932**

**70. M.S.Ordubadinin sözlərinə yazılmış** mahnılar [Not] /M.Maqomayev //Azərbaycan EA Əlyazmalar İnstitutu.- Fond № 25.- S.v. 113.

**Əlyazmanın içindəkilər:** Bizim kənd; Neft; Tarla; Bahar; Aprel; May; Yaz; Yarış; Zərbəçi yoldaşım; Zərbəçinin nəğməsi; Kəklik; Mazut ordusu; Saz: səs və fortepiano üçün.

**1933**

**71. 60 il** [Not]: xor və fortepiano üçün: Azərbaycan Türk Dövlət Teatrının 60 illiyinə həsr olunmuşdur /M.Maqomayev; sözləri A.Yakovlevindir //Azərbaycan EA Əlyazmalar İnstitutu.- Fond № 25.- S.v. 113.

## *FORTEPİANO ÜÇÜN YAZILMIŞ ƏSƏRLƏR*

**72. Fortepiano üçün yazılmış** müxtəlif pyeslər [Not]: /M.Maqomayev //Azərbaycan EA Əlyazmalar İnstitutu.- Fond № 25.- S.v. 113.

**Əlyazmanın içindəkilər**: Parad; Rədd olsun savadsızlıq; Bahar; Hindistan; Dərviş; Turac.

## *XALQ MAHNILARININ TOPLANMASI VƏ İŞLƏNMƏSİ*

### 1928

**73. Azərbaycan türk el** nəğmələri [Not]: səs ilə fortepiano üçün /M.Maqomayev //Azərbaycan EA Əlyazmalar İnstitutu.- Fond № 25.- S.v. 18.

**Məzmunu:** Azərbaycan; Zibeydə; Turac; Koroğlu; Tərəkəmə; Fason; On dörd; Rəng; Nuntaq; Dərya kənarında; Ay qız kimin qızısan; Zaman gəlir; Göydə göyərçin olar; Savalanın bir üzü; Ha lalo; Bağa getdim; Ginəlim; Qaşı kaman; Gözləri qara; Qaşın arasında xalı.

**74. El nəğmələri:** səs və fortepiano üçün /M.Maqomayev //Azərbaycan EA Əlyazmalar İnstitutu.- Fond № 25.- S.v. 18.

**Məzmunu:** Uçdum ha uçdum; Üç telli durna; Lay-lay; Beşik başında; İş başında; Çox şumla yeri; Qarabağ şikəstəsi; Köylü qadının nəğməsi; Cici-cici; Səhər-səhər yaz çağı; Şəfəq sökülərkən.

**75. Türk melodiyaları**: foptepiano üçün işləmələr /M.Maqomayev //Azərbaycan EA Əlyazmalar İnstitutu.- Fond № 25.- S.v. 18.

## *SƏSYAZMALAR*

**76. Azərbaycan çöllərində**: rapsodiya /M.Maqomayev; çalır Azərbaycan Radiosunun Simfonik orkestri; dirijor Ə.Bədəlbəyli.- 1928.- MONO-33 M 10-37716.

**77. Əsərlərindən parçalar** /M.Maqomayev.- Melodiya.- D-47459-60.- 2 üzlü.

**Məzmunu:** "Nərgiz" operasından uvertüra; Əlyarın ariyası; Şəlalə: rapsodiya; Rəqs; "Şah İsmayıl" operasından uvertüra və rəqs; Aslan şahın ariyası; Şah İsmayıl və Ərəb Zənginin dueti; Şüştər: rapsodiya.

**78. "Nərgiz"** operasından uvertüra /M.Maqomayev; ifa ed. simfonik orkestr; dirijor Niyazi //Maqomaev M. Əsərlərindən parçalar qr. valında.- Melodiya.- D-47459.

**79. Operalardan ariya və fraqmentlər** /M.Maqomayev.- Melodiya.- D-37715-16.- 2 üzlü.

**I üzdə:** Uvertüra; Əlyarın ariyası: ("Nərgiz" operasından); Şah İsmayıl və Ərəb Zənginin dueti; Aslan şahın ariyası: ("Şah İsmayıl" operasından) /ifa ed.: solistlər, xor və orkestr; dirijor Niyazi.

**II üzdə:** Ceyran: rapsodiya; Şüştər: rapsodiya; Rəqs: simfonik lövhə; Şəlalə: rapsodiya /ifa ed.: Azərbaycan Radiosunun Simfonik orkestri; fonoqramma.

**80. Rəqs** /M.Maqomayev; çalır Azərbaycan Radiosunun Simfonik orkestri; dirijor Ə.Bədəlbəyli.- 1928.- MİNİ-33 M 10-37716.

**81. Şah İsmayıl**: opera: Şah İsmayılla Ərəb Zənginin dueti /M.Maqomayev; çalır Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Simfonik orkestri; dirijor Ü.Hacıbəyov, tarda Q.Pirimov; müğənnilər: M.Maqomayev, Ə.Sadıxov, H.Rzayeva; Aslan şahın ariyası; dirijor Niyazi.- 1957.- MİNİ- 33 M 10-37715.

**82. Şah İsmayıl**: 5 pərdəli opera /M.Maqomayev; ifa ed.: M.F.Axundov adına Dövlət Akademik Opera və Balet

Teatrının solistləri, xor və orkestr; dirijor Ə.Bədəlbəyli.- Aprel z-d, D- 017336-40.

**83. “Şah İsmayıl”** operasından Aslan şahın ariyası /M.Maqomayev; M.F.Axundov adına Lenin ordenli Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının 75 illiyi.- Qramval 3-17828.

**84. Şəlalə**: simfonik pyes /M.Maqomayev; çalır Azərbaycan Radiosunun Simfonik orkestri; dirijor Ə.Bədəlbəyli.- 1933.- MONO-33 M 10-37716.

**85. Şəlalə:** rapsodiya /M.Maqomayev; ifa ed.: simfonik orkestr; dirijor Niyazi //Maqomayev M. Əsərlərindən parçalar.- Melodiya.- D-47459.

**86. Şur dəramədi**: fantaziya /M.Maqomayev; çalır Azərbaycan Radiosunun Simfonik orkestri; dirijor Ə.Bədəlbəyli.- 1933.- MONO -33 M 10-37716.

## *PROQRAMLAR*

### 1935

**87. Nərgiz** [Mətn]: premyeranın proqramı /M.Maqomayev.- Bakı, 1935.- 16 s.

**88. “Nərgiz”** operasının birinci tamaşasına həsr olunmuş geniş proqram [Mətn].- Bakı, 1935.- 8 s.

**89. Şah İsmayıl** [Mətn] /M.Maqomayev; M.F.Axundov ad. ASŞC Dövlət Böyük Opera və Balet Teatrosu.- Bakı, 1935.- 12 s.

### 1938

**90. Şah İsmayıl** [Mətn]: [1937-1938-ci il mövsümü] /M.Maqomayev; Azərb. SSR XKS yanında İncəsənət İşləri

İdarəsi; M.F.Axundov adına Böyük Dövlət Opera və Balet Teatrı. - Bakı, 1938.- 10 s.

## ELEKTRON RESURSLAR

**91. [Əsərləri]** /M.Maqomayev.- CD 297.

**Məzmunu:** "Nərgiz" operasından uvertüra; Əlyarın ariyası; Şəlalə: rapsodiya; Rəqs; "Şah İsmayıl" operasından uvertüra və rəqs; Aslan şahın ariyası; Şah İsmayıl və Ərəb Zənginin dueti; Şüştər: rapsodiya.

**92. Orkestr üçün əsərlər:**1953-cü ilin yazıları /M.Maqomayev; ifa ed.: Azərbaycan radiosunun orkestri. - CD 390.

**Məzmunu:** Ceyran: rapsodiya; Azərbaycan tarlalarında; Şüştər; Şəlalə; Simfonik rəqs.

**93. Şah İsmayıl:** 5 pərdəli opera: 1957-ci ilin yazıları /M.Maqomayev; ifa ed.: M.F.Axundov ad. Azərbaycan Dövlət Opera və Balet Teatrının xoru və orkestri; dirijor Ə.Bədəlbəyli; xormeystr N.Məlikov.- CD 388-389.

## DÖVRİ MƏTBUATDA VƏ MƏCMUƏLƏRDƏ ÇAP OLUNAN MƏQALƏLƏRİ

### 1921

**94. Kəndlərdə mədəniyyətçilərin vəziyyəti** məsələsinə dair [Mətn] /M.Maqomayev //Kommunist.- 1921.- 9 fevral.

### 1922

**95. D.Bünyadzadə adına Dövlət** türk teatrının direktoru, bəstəkar M.Maqomayevin müsahibəsi [Mətn] /M.Maqomayev //Kommunist.- 1922.- 4 oktyabr.

## 1924

**96. Türk musiqi əsasları** haqqında [Mətn] /M.Maqomayev //Kommunist.- 1924.- 13 iyun.

**97. Türk operası haqqında** [Mətn] /M.Maqomayev //Kommunist.- 1924.- 31 oktyabr.

**98. Türk teatrosu haqqında** [Mətn] /M.Maqomayev //Kommunist.- 1924.- 24 oktyabr.

## 1934

**99. "Nərgiz"** operası sentyabrda hazır olacaqdır [Mətn] /M.Maqomayev //Kommunist.- 1934.- 14 iyul.

**100. Yaradıcılıq yollarında** [Mətn] /M.Maqomayev //Kommunist.- 1934.- 2 oktyabr.

## 1935

**101. Musiqi komediyası da** yaradacam [Mətn] /M.Maqomayev //Kommunist.- 1935.- 24 noyabr.

**102. "Nərgiz"** operası üzərində fəaliyyətim [Mətn] /M.Maqomayev //Kommunist.- 1935.- 24 dekabr.

# HƏYAT VƏ YARADICILIĞI HAQQINDA

## *KİTABLAR*

### 1940

**103. Müslüm Maqomayev** [Mətn]: (ölümünün 3 illiyi münasibətilə) /Azərbaycan Sovet Kompozitorları İttifaqı; M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyası.- Bakı: Azərnəşr, 1940.- 12 s.

**Kitabda** Ü.Hacıbəyovun, A.Zamanovun M.Maqomayev haqqında xatirələri və M.Maqomayevin musiqi əsərlərinin siyahısı verilmişdir.

### 1962

**104. Abbasova, E.** Zaqafqaziya respublikalarının musiqi mədəniyyəti [Mətn] /E.Abbasova; Azərbaycan SSR Siyasi və Elmi Bilikləri Yayan Cəmiyyət.- Bakı, 1962.- 36 s.

**Kitabda** Müslüm Maqomayevin əsərləri, mahnı-marşları, lirik mahnılarında xalq musiqisinin janr və üslub xüsusiyyətləri haqqında məlumat verilmişdir [S.8, 11, 17-18, 22-23].

